# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi yad olundu

## Heydər Əliyev Mərkəzində

12 dekabr—ümummilli lider Heydər Əliyevin anım günü ərəfəsində Heydər Əliyev Mərkəzinə ziyarətçi axını daha da çoxalmışdır. Dekabr ayının 10-da Mərkəzdə “Xalqına qırılmaz tellərlə bağlı insan” mövzusunda növbəti tədbir keçirildi. Tədbirdə rayon maliyyə şöbəsinin, əhalinin sosial müdafiəsi mərkəzinin, təhsil şöbəsinin əməkdaşları, turizm və otelçilik üzrə peşə tədris mərkəzinin müəllim və şagirdlərinin bir qrupu iştirak edirdi.

Öncə tədbir iştirakçıları Mərkəzin foyesində ümummilli liderin büstü önünə gül-çiçək dəstələri qoydular. Mərkəzin nəzdindəki dərnəyin üzvlərinin əl işlərindən təşkil olunmuş sərgiyə baxış keçirildi. Sonra iştirakçılar dəyirmi masa araxasında toplaşdılar.

Mərkəzin direktoru Xəyalə İsayeva tədbiri açaraq “Xalqına qırılmaz tellərlə bağlı insan” mövzusunda geniş məruzə etdi.

Məruzəçi qeyd etdi ki, Azərbaycan dövlətinin tarixində, xalqın yaddaşında əbədilik özünə yer etmiş Heydər Əliyev vətənini, xalqını xoşbəxt, ölkəsini firavan görmək üçün bütün ömrünü bu müqəddəs amala sərf etmişdir.

Heydər Əliyev SSRİ dövründə Azərbaycanı geri qalmış aqrar respublikadan hərtərəfli inkişaf etmiş diyara çevirmək üçün yorulmadan fəaliyyət göstərmiş və bu arzusuna çatmışdır. O dövrdə artıq Azərbaycan onun rəhbərliyinin ikinci ilində—1971-ci ildə keçmiş SSRİ-nin müttəfiq respublikaları içərisində ön sıralara çıxmışdı.





Heydər Əliyev iqtisadiyyatla bərabər respublikada elmin, təhsilin, ədəbiyyatın, mədəniyyətin, incəsənətin, həyatın bütün sahələrinin inkişafına böyük diqqət və qayğı göstərmişdir. Nəticədə Azərbaycan elmi və mədniyyəti sahəsində görünməmiş nailiyyətlər əldə olunmuşdur. Heydər Əliyev imperiyanın tüğyan etdiyi, hər tərəfdə rus dilinin hakim olduğu dövrdə Azərbaycan dilinin təmizliyini, saflığını qoruyub saxladı, statusunu yüksəltdi.

Heydər Əliyevin ən mühüm xidmətlərindən biri də milli hərbi kadrların hazırlanmasına göstərdiyi diqqət və qayğı idi. Bunun bariz nümunəsi həmin illərdə Cəmşid Naxçıvanski adına orta hərbi məktəbin açılmasıdır. Eyni zamanda Heydər Əliyev hər il yüzlərlə Azərbaycanlı gəncin SSRİ-nin müxtəlif şəhərlərindəki ali hərbi məktəblərə göndərilməsinə də xüsusi diqqət yetirirdi.

Heydər Əliyev dahi uzaqgörənliyi ilə gələcək müstəqil Azərbaycan ordusunun zabit kadrlarının hələ o dövrdə yetişməsi qayğısına qalırdı. Bu gün Azərbaycan ordusunda xidmət edən yüksək rütbəli zabit və general heyətinin əksəriyyəti o dövrdə yetişmiş hərbçilərdir.

Məlum 1980-ci ilin sonu 90-cı illərin əvvəlləri baş verən hadisələr nəticəsində 1991-ci ilin oktyabrında Azərbaycan müstəqilliyini elan etsə də daxili və xarici amillər, ölkə rəhbərliyinin səriştəsizliyi Azərbaycanı məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə bir dövrdə 1993-cü ilin iyun ayında Heydər Əliyev xalqın təkidli tələbilə Azərbaycanda siyasi hakimiyyətə qayıtdı və qısa müddətdə ölkəmizi sabit, sürətlə inkişaf edən, beynəlxalq aləmdə nüfuzu artan bir dövlətə çevirdi.

Məruzəçi ulu öndərin fəaliyyətinin digər əsas məqamları barədə məlumatları tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Tədbirdə Heydər Əliyevin Azərbaycana ilk və ikinci rəhbərliyi dövründə rayonda müxtəlif vəzifələrdə olmuş Sədaqət Bayramova və bu sətirlərin müəllifi ümummilli lider haqqında xatirələrini danışdılar.

Gənclər və idman idarəsinin əməkdaşı Məhəmmədəli Səfərçinov, turizm və otelçilik üzrə peşə tədris mərkəzinin şagirdi Eldəniz Salmanov və sair tədbir iştirakçıları Heydər Əliyev haqqında düşüncələrini tədbir iştirakçılarına çatdırdılar.

Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında video-materiala baxışla tədbir sona çatdı.

**Qüdrət SƏMƏDOV.**

**Fotolar S. Umuyevindir.**

# Heydər Əliyev Müstəqil Azərbaycanın memarıdır

Heydər Əlirza oğlu Əliyev XX əsrin ən görkəmli dövlət xadimlərindən biri, beynəlxalq nüfuza malik müdrik siyasətçi olmuşdur. Azərbaycanın yüksəliş və dirçəlişi, dünya dövlətləri sırasına çıxması, geniş miqyasda tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti kimi o, dövlət müstəqilliyimizin və ərazi bütövlüyümüzün qüdrətli təminatçısı olmuşdur.

Müstəqilliyi sual altında qalan respublikamızın bütövlüyünü, suverenliyini, azadlığını qoruyub saxlamaq, bəşəri dəyərlərə əsaslanaraq dövlətlər içərisində dövlətimizi bu günkü layiqli səviyyəyə çatdırmaq, onu inkişaf etdirmək ancaq qeyri-adi zəkaya, təkrarsız təşkilatçılıq qabiliyyətinə malik bir dahiyə—ümummilli liderimiz Heydər Əliyevə mənsubdur. O, tükənməz istedadını, zəngin təcrübəsini dünya sivilizasiyasına qovuşmuş bir dövlət qurmağa sərf etmişdir. Onun özünəməxsus xarakteri, olub keçənləri və gələcəyi təhlil etmək bacarığı, hər hansı problemin həlli zamanı onlarca variantı saf-çürük edərək düzgün nəticə çıxarması sayəsində xalqımızı sonu görünməz bəlalardan xilas etmişdir.

Keçən yüzilliyin sonlarında ölkənin iqtisadiyatı dağılmağa başlamış, onun mövcud potensialı heçə enmişdi. Belə bir vaxtda hakimiyyətə gələn ümummilli lider ölkəni iqtisadi böhrandan çıxarmağın yeganə yolunun yalnız islahatlar olduğunu bildirmişdir.

Ölkəni dərin iqtisadi böhrandan çıxarmağa qadir olduğunu sübut etmək, iqtisadi sistemi dəyişdirmək məsuliyyətinin ağır yükünü üzərinə götürmək üçün geniş xalq kütləsində ona inam yaratmaq bacarığı lazım idi. Belə bir ağır məsuliyyəti yalnız böyük müdrükliyə, möhkəm siyasi iradəyə, dərin bilik və zəngin təcrübəyə malik olan tarixi şəxsiyyət Heydər Əliyev öz üzərinə götürə bilərdi.

Dövlət strukturlarının möhkəmləndirilməsi, habelə hüquqi dövlət quruculuğu və bazar iqtisadiyyatına keçidlə əlaqədar yeni struktur bölmə və təşkilatların yaradılması da Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev özünün çoxillik dövlətçilik fəaliyyəti dövründə yaradıcı ziyalılara, elm, təhsil və mədəniyyət xadimlərinə həmişə böyük diqqət və qayğı göstərmiş, öz ətrafında milli ziyalıların ən tanınmış, adlı-sanlı nümayəndələrini birləşdirmiş, daim onlarla birgə işləmişdir. Fəaliyyəti dövründə elmin, təhsilin, mədəniyyətin, siyasi maarifçiliyin istimai faktora çevrilməsi, inkişaf etdirilməsi məsələlərinə ciddi fikir vermiş, bu sahədə yaddaqalan tədbirlər həyata keçirmişdir.

**(Ardı 5-ci səhifədə).**